**Əlizadə C.Ş., Əliyev B.Ə.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2019.58.49-64**

# Cinayətkarlığın determinantlarının psixososial səbəbləri

**Xülasə**: Cinayətkarlıq cəmiyyətdə xüsusi mülkiyyətin yaranması, ibtidai icma cəmiyyətinin siniflərə parçalanması və bunlarla bağlı sosial-iqtisadi ziddiyyətlərin yaranması ilə meydana gəlmişdir. Sinifli cəmiyyətin inkişafı obyektiv olaraq xüsusi mülkiyyətin, şəxsiyyətin və imtiyazlı hakim silkin dövlət-hüquqi mühafizəsi haqqında məsələni zəruri etmişdir.

Cinayətkarlıq tarixən dəyişən xarakterli hadisədir və müxtəlif sosial-iqtisadi formasiyalarda cinayətkarlığın vəziyyəti də müxtəlif olur. Onun vəziyyəti və quruluşu müəyyən formasiyanın ayrı-ayrı inkişaf dövrlərindən, cinayətkarlığı doğuran səbəb və şəraitdən müəyyən edilən cinayətlərin dairəsindən asılı olaraq dəyişir. Cinayətkarlığın dəyişən xarakterli olması cinayət qanunvericiliyinin inkişaf tarixində də müntəzəm müşahidə olunur.

Cinayətkarlığın səbəblərinin mürəkkəb məzmunu onun öyrənilməsinə müxtəlif yanaşmaların yaranmasına səbəb olmuşdur. Cinayətkarlığın səbəbləri haqqında təsəvvürlərin tarixi çox qədimdir. Aristotel hesab edir ki, zəif iqtisadiyyat cinayətkarlığın nüvəsidir, Sisserona görə cinayətin səbəbi tamahla bağlı hisslərdir, Toması Mor da cinayətkarlığın artmasını iqtisadi amillərlə bağlayırdı. O, mülkiyyətlə bağlı cinayətlərə görə azadlıqdan məhrum etməni inkar edir və onu islah işləri ilə əvəz etməyi təklif edirdi.

**Açar sözlər**: cinayətkarlıq; determinasiya; səbəb və şərait; psixososial səbəblər.

---

[♦] **Əlizadə Cavid Şirzad oğlu -** AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun "Dövlət təhlükəsizliyinin hüquqi təminatı" şöbəsinin elmi işçisi (Azərbaycan). E-mail: cavid6455@mail.ru
**Əliyev Bəxtiyar Əbdürəhman oğlu -** h.ü.f.d., dosent, AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun "Dövlət təhlükəsizliyinin hüquqi təminatı" şöbəsinin müdiri (Azərbaycan).E-mail:antiterror-baku@mail.ru

Cinayətkarlıq dedikdə müəyyən dövlətdə, müəyyən zaman intervalında baş verən cinayətlərin sistemi olub tarixən dəyişən sosial-hüquqi hadisə başa düşülür. Cinayətkarlığı bir sosial-hüquqi təzahür kimi tədqiq edib öyrənmədən onunla mübarizədə effektiv nəticə əldə etmək qeyri-mümkündür [3, s. 32]. Həmçinin deyə bilərik ki, cinayətkarlıq nəinki bizim cəmiyyəti, həmçinin bütün bəşəriyyəti narahat edən və günü-gündən daha da aktuallaşan, elmi tədqiqatlara ehtiyacı olan problemdir.

Cinayətkarlıq sosial hadisədir. Belə ki, cinayətlərin subyektləri, eləcə də mənafelərinə qəsd edilən şəxslər cəmiyyətin üzvləridir. Cinayətkarlıq həm də ona görə sosial hadisədir ki, onun əsasında məhsuldar qüvvələrin xarakteri və istehsal münasibətləri ilə bağlı olan sosial-iqtisadi qanunauyğunluqlar durur. Cinayətkarlığı sosial xarakter daşıyan səbəb və şərait doğurur.

Cinayətkarlığın səbəblərinin öyrənilməsində ən çox istifadə edilən anlayışlardan biri deteminizm anlayışıdır. Determinasiya - öyrənilən hadisənin mənşəyini xarakterizə edən ümumi kateqoriyadır.

Determinasiya - hadisələr, proseslər, müəyyən amillər arasında elə asılılıq əlaqəsidir ki, belə əlaqə sayəsində hadisə və prosesin spesifik əlamətləri «doğulur». Cinayətkarlıqla sosial varlıq arasında xarakterik əlaqə vardır.

Hər hansı hadisənin determinasiyası (amillərin təsiri ilə doğulması) prosesinə diqqət yetirdikdə, adətən bu hadisəni doğuran, yaxud da onun baş verməsinə kömək edən amilləri müəyyən etmək olar. Bu amillər determinantlar adlanır. Determinasiya prosesi səbəbiyyət prosesindən geniş tədqiqatlarda cinayətkarlığa təsir göstərən bütün amillərin aşkar edilməsi və qeydə alınması faydalıdır, lakin kifayətləndirici deyildir. Çünki, determinantların müəyyən edilməsi, onların cinayətkarlıqla əlaqədə olduğunu, səbəb və ya şərait rolu oynadığını aydınlaşdırmağa hələ imkan vermir.

Səbəbli əlaqə (səbəbiyyət) - determinasiyanın əsas növüdür. Səbəbiyyət prinsipi hadisələr arasında əlaqəni qeyd etməklə kifayətlənmir, həm də belə

asılılığın xarakterini, yəni bir hadisənin (səbəbin) uyğun şəraitdə başqa hadisəni (nəticəni) törətdiyini müəyyən edir. Qanunauyğun əlaqələrin bir növü olmaqla, səbəbiyyətin ümumilik, təkrarolunmazlıq (qayıtmazlıq), zaman və məkan fasiləsizliyi kimi xüsusiyyətləri vardır. Səbəbiyyət nəticə doğurduğu üçün, təbiətinə görə genetik əlaqəni nəzərdə tutur. Səbəbli əlaqə - mürəkkəb, çox pilləli, iyerarxik xarakter daşıyır [4, s. 29].

Determinizmin növü kimi səbəbli əlaqə nəticənin baş verməsi ehtimalını iki yolla şərtləndirir: səbəbi formalaşdırır və onun (səbəbin) həyata keçirilməsinə kömək edir.

Vəzifə yalnız cinayətkarlıqla əlaqədə olan hadisə və proseslərin yığımını müəyyən etməkdən ibarət deyildir. Həm də, belə neqativ halların və proseslərin əlaqəsinə sistemli təhlil qaydasında yanaşmaq, sistemlə bağlı olan həlledici elementləri müəyyən etmək, onunla (sistemlə) başqa ünsürlər arasındakı münasibəti, qarşılıqlı təsiri aydınlaşdırmaq, nəticə etibarı ilə cinayətkarlığın səbəb və şəraitinin hərəkət mexanizmini, onun funksional fəaliyyətinin qanuna uyğunluğunu aydınlaşdırmaq tələb olunur.

Cinayətkarlığın səbəb və şəraiti sistem kimi, qarşılıqlı əlaqədə olan, müəyyən iyerarxiyaya və səviyyəyə malik sistemaltı elementlərdən ibarətdir. (Konkret cinayətin, müəyyən qrup cinayətlərin səbəb və şəraiti - sistemaltı elementdir; cinayətkarlığın səbəb və şəraiti sistemin bütövlükdə özüdür.)

Beləliklə, cinayətkarlığın sosial hadisə kimi ümumi səbəb və şəraiti, müxtəlif növ cinayətlərin səbəb və şəraiti tədqiq edilir.

Cinayətkarlığın mövcudlaşmasına kömək edən şərait (hallar) kompleks hadisələr olub, özlüyündə cinayətkarlığı doğurmağa qadir olmur, lakin cinayətkarlığın meydana gəlməsinə və yaşamasına kömək edən hallardır (şəraitlərdir) [8, s. 241].

Cinayətkarlığın mövcudlaşmasına kömək edən şəraitləri üç qrupa ayırmaq olar:

- müşaiyət edən şərait. Belə şərait hadisə və proseslər üçün müəyyən zaman və məkan daxilində ümumi fon yaradır;

- zəruri şərait. Zəruri şərait olmadıqda hadisələrin baş verməsi bir qayda olaraq mümkün olmur;

- kifayətləndirici şərait. Belə şəraiti bütün zəruri şəraitlərin məcmuyu yaradır.

Cinayətkarlıq tərifi bir-birindən çox fərqli faktları əhatə edir. Kiçik ya da böyük bir ictimai qrupun üzvləri tərəfindən yaxşı faydalı deyə qəbul edilmiş olan inancların, ənənə və adətlərin, təşkilatların söykəndikləri qaydalara zidd olaraq işlənmiş olan anti-ictimai bir davranış cinayətkarlıq kimi dəyərləndirilir. Bir davranış və ya hərəkət, müəyyən bir ölkənin və dövrün adət, ənənə, qayda və düşüncələriylə ziddiyyət halında olarsa cinayət sayılar. Cinayət anlayışı, cəza hüququnda göstərildiyi kimi qanunun cəzalandırdığı hərəkət olaraq ələ alına bilməyəcək qədər mürəkkəb və çoxistiqamətlidir. Cinayətkarlığa psixoloji, sosioloji istiqamətləri əhatə edəcək bir anlayışla baxmaq lazımdır [5, s. 57].

Cinayətkar uşaq və gənc yoxdur, cinayətə itələnilmiş uşaq və gənc vardır. Psixologiyada illər boyu aparılan araşdırmalar göstərmişdir ki, xüsusilə inkişaf dövrlərində insanın içində yaşadığışərtlərin onun necə bir insan olacağını, şəxsiyyətinə böyük ölçüdə təsir edir [1, s. 78]. Bu səbəblə günahkar kimdir qiymətləndirməsini edərkən fərdin cinayətini yalnız onun fərdi bir vəziyyəti olaraq qiymətləndirmək, içində yetişdiyi mənfi ictimai şərtləri göz ardı etmək, bu günün elmi anlayışına görə qeyri-mümkündür. Bu səbəblə cinayətkarlığın qiymətləndirilməsində bu vəziyyəti hazırlayan mənfi ictimai ətrafın da nəzərə alınması lazımdır. Cinayətin törədilməsinin aşağıdakı psixososial səbəbləri var:

- Fərdin inkişafı, necə bir şəxsiyyət kimi yetişməsi ən çox uşaqlıq və gənclik illərində formalaşır. İctimailəşmə müddəti kiçik yaşlardan başlayaraq yetkinliyə qədər davam edir. Daha sonra da yavaş-yavaş inkişafını davam etdirir. Beləcə insan cəmiyyətin bir üzvü olur. Bu dövrdə yaşanan mənfiliklər fərdin şəxsiyyət kimi formalaşmasına mənfi istiqamətdə təsir edir;

- Bu inkişaf müddəti içində uşaq ana ata ilə yola getmək, ona bənzəmək, onu nümunə götürmək istər.Sevilməyən nümunələr rədd edilir. Beləcə fərd şəxsiyyət xüsusiyyətlərini meydana gətirər;

- Yetkinlik və gənclik dövrünün insan həyatında əhəmiyyətli bir yeri vardır. Gənc fiziki və cinsi baxımdan böyük dəyişikliklər yaşar, zehni olaraq da bunların fərqinə varmağa başlayır.Sürətli bir zehni inkişaf da yaşıyar. Ancaq hələ kafi təchizatlara sahib deyil. Əgər gənc, təzyiq altında və sərbəst şəkildə böyüməyi dəstəkləməyən bir mühitdə yetişmişsə, ailə və böyüklər yerinə digər qrupların təsirinə heç sorğulamadan asanlıqla qoşula bilər. Beləcə öz şəxsiyyətini isbat etməyəçalışar;

- İctimai təsir və uyma davranışı. Cinayət və cinayətkarlıq əhəmiyyətli rol oynaya biləcəyi düşünülən bir ictimai psixoloji faktdır. Elmi araşdırmalar insanların müxtəlif mühitlərdə qrupun təsirinə və nüfuza qarşı duramadıqlarını, öz fikirlərini qrupun təsiri istiqamətində dəyişdirdiklərini göstərmişdir. Bu vəziyyət fərdin bireyleşme dərəcəsinə və müxtəlif ortamlardakı faktorlara görə fərqliliklər göstərməkdədir [6, s. 117];

- Yenə edilən bəzi araşdırmalara görə insanın ətrafından təcrid edilməsi və fərqli məlumat və görüşlər yüklənməsi yolu ilə bütün fikirləri dəyişdirilə bilər. Ancaq belə bir vəziyyətdən təsirlənmənin fərdi fərqlilikləri vardır. Gənclərin və müstəqil şəxsiyyət kimi özünü göstərə bilməyən və təhsil səviyyəsi aşağı kəslər daha çox təsirlənir (beyin yuma, manipulyasiya);

- Ailə mühiti fərdin inkişafına təsir edən ən yaxın vəən təsirli inkişaf mühitidir. İctimai doğru və səhvlər, adət vəənənələr əvvəlcə ailə vasitəçiliyi ilə fərd tərəfindən öyrənilir;

- Həddindən artıq intizamlı, sevgisiz və soyuq ailə mühitlərində böyüyən uşaqlarda isə müxtəlif psixoloji problemlər çox daha yüksək səviyyədə tapılmışdır. Ailə mühiti baxımından uşağı cinayətə itələyən həddindən artıq intizam qədər diqqətsiz, soyuq, məsafəli davranışların da əhəmiyyətli olduğu bilinməkdədir;

- Uşağın inkişafında son dərəcə müsbət rol oynayan demokratik, yoxlamalı isti ailə mühitinin bəzi xüsusiyyətləri belə sıralaya bilərik. Uşağa təzyiq və zor tətbiq edilməməlidir, qaydalar onunla müzakirə edilməlidir, qaydalar və səbəbləri açıqlanaraq ona başa düşəcəyi şəkildəçatdırılmalıdır. Uşağın ailə qərarlarında yaşına uyğun bir şəkildə iştirak etməsi təmin edilməli, ona seçki azadlığı tanınmalı, uşağın fikirləri, istəkləri nəzərə alınmalı, isti, sevgi verən davranışlar göstərilməli, ondan məsul yetkin davranışlar tələb olunmalı, mədəni və ortaq fəaliyyətlərdə iştirakı təmin ediməli, dəyər vermə vəəhəmiyyət vermə, ünsiyyət qurma, olduğu kimi qəbul etməyəçalışmalı, uşağın müstəqilliyinin inkişafı dəstəklənməli, təhsil standartları qoyulmalı və onlara yönəlməsi dəstəklənməlidir. Bu cür ailə mühitlərində yetişən uşaqların özünə etibarlı, öz özünü nəzarət, enerjili, şən, problemlərlə baş edə bilən, yoldaşlarıyla və yaşlılarla yaxşıəlaqələrdə olan, məqsədli, müvəffəqiyyət yönümlü, müstəqil və avtonom xüsusiyyətlər göstərdiyi görülmüşdür. Ayrıca bu cür mühitlərdə yetişən fərdlərdə cinayətə rast gəlinmir [5, s. 57];

- Ailənin təhsil səviyyəsi, gəlir səviyyəsi kimi faktorlar də cinayətkarlıqla bağlıdır;

- İnsanın təcavüzkarlıq xüsusiyyətini inkişaf etdirərək yetişməsi də cinayət və cinayətkarlıq davranışı ilə bağlılığı var. Fərdin inkişafına maneə törədən, məqsədlərini və onu məhdudlaşdıran, cəzalar ilə məhdudlaşdıran mənfi mühitlər təcavüzkarlıq şəxsiyyət xüsusiyyətinin inkişafına zəmin yaradar. Ayrıca ailə mühitində təcavüzkarca davranan valideyn nümunələri bunu daha da qüvvətləndirər;

- Fərd olma və fərdiləşmə ilk inkişaf illərində sıx olaraq yaşana biləcək bir inkişaf müddətidir. İnsanın avtonom bir fərd olmasını dəstəkləyən mühitlərdə cinayətə meyl azalır. Valideynlərin uşaqlarında itaət etmə və söz dinləmə davranışı yerinə, müstəqilliyi dəstəkləmələri onların avtomatik olaraq və sorğulamadan digərlərinin davranışına qatılan həddindən artıq uyma davranışı göstərmələrinə

maneə törədəcək. Xüsusilə gənclik dövründə gənclər ailədən və cəmiyyətdən ayrılıb müstəqil olma, məntiq icra etmə, cəmiyyəti və yeniyetməni tənqid xüsusiyyətləri göstərərlər [1, s. 78];

- Ailənin yanında məktəb mühiti də fərdin inkişafında və günahkarlıq davranışında əhəmiyyətli rol oynayar. Bənzər şəkildə məktəb mühitinin da mehriban, cəza və təzyiq tətbiq etməyən, fərd olmağı inkişaf etdirən bir mühit yaratması cinayətkarlığı azaldıcı rol oynayacaq [7, s. 248];

- Fərdin cinayətə yönəlməsində cəmiyyətin sosial iqtisadi şərtləri, sürətli ictimai dəyişmələr və köçlər də əhəmiyyətlidir. Araşdırmalar zamanı sürətli ictimai dəyişmələrdə, iqtisadi böhranlar zamanı və cəmiyyətdə xaos mühitinin yaranması ilə cinayət nisbətlərində artımlar müşahidə olunur.

Məqaləyə əsasən aşağıdakı nəticələrə gələ bilərik:

1. Cinayətkarlığın determinantları neqativ sosial və psixoloji təzahürlər sistemidir.

2. Cinayətkarlığı şərtləndirən səbəblər - ictimai həyatın sahələrində, müxtəlif məzmunlu, səviyyəli qarşılıqlı əlaqə və təsirdə olan sosial hallar və proseslərin neqativ tərəfləridir.

3. Nəticədə qeyd edə bilərik ki, fərdi cinayətə yönəldən səbəblər hələ erkən yaşlarından, uşaqlıq dövründən formalaşır ki, buna daşəxsin formalaşdığı makro mühit, aldığı təhsil, psixoloji travmalar, hazırki psixoloji vəziyyəti və s. amillər təsir göstərir. Xüsusilə cinayətkar uşaq və gənclərin ailələrinin genoqramı (genoqram – ailənin, simvollar vasitəsilə çəkilmiş və ailə üzvləri arasındakı münasibətlərin qeyd edildiyi, şəcərə ağaçıdır ki, bu ağac mütəxəssisə ailə daxilindəki böhranın səbəblərini aşkar etməyə köməklik göstərir) və ekoxəritəsi (individual həyat sistemini göstərən qrafik təqdimat) araşdırıldığında əlaqəsiz və asosial ailə mühitləri ilə qarşılaşılır. Bu isə, şəxsin ailə mühitindən uzaqlaşmasına və nəticədə cinayətə yönələn şəxsiyyətə çevrilməsinə gətirib çıxarır.

## Biblioqrafiya


1. Froom E. Psixoanaliz və din. Bakı, 2004.
2. Qəhrəmanov T.Ə., Əhmədov Y.P. Sosial işin əsasları. Bakı, 2014.
3. Mövsumov F., Mansurov V. Kriminologiya və cinayətlərin profilaktikası. Bakı, Qanun, 2008.
4. Səməndərov F.Y. Kriminologiya / Dərs vəsaiti, Bakı 2003.
5. Vəlimedova O.V. Psixososial işin məzmunu. Bakı, 2015.
6. Клейберг Ю.А. Психология девиантного поведения: Учеб. пособие для вузов. М., 2001.
7. Кондрашенко В.Т. Девиантное поведение у подростков. Минск, 1988.
8. Сборник статей / Социология преступности. Москва, 1966.